BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 Humanitar elmlər seriyası 2015

UOT 94 “04/15”

MALAYYADA İSLAMIN YAYILMASI. MALAKKA SULTANLIĞI

K.M.SOFİYEVA
Bakı Dövlət Universiteti
Sofiyeva@rambler.ru

Məqalə Malakka yarımadası xalqları arasında islam dininin yayılması prosesinə həsr olunmuşdur. Müəllif tərəfindən Malakka sultanlığının yaranması və burada islam dininin əsaslı surətdə möhkəmlənməsi vurğulanmışdır. Məqalədə həmçinin qeyd olunur ki, islam əsrlər boyu Malayya cəmiyyətinə uyğunlaşmış bu cəmiyyətin adətlərinə və keçmişinə uyğun olaraq dəyişikliyə uğramışdır.

Açar sözlər: Cənub-Şərqi Asiya, Malayya, Malakka sultanlığı, İskəndər şah, İslam

İslam Cənub-Şərqi Asiyaya ərəb və fars tacirləri vasitəsilə hələ IX-X əsrlərdə gətirilmişdir. Lakin yeni dinin yerli əhali arasında yayılması XIII əsrin sonundan tez olmamışdır. Burada İslamın əsas bələdçiləri İndoneziyada və Malayyada geniş ticarətlə məşğul olan hind tacirləri oldular. Hindistanın islamlaşması prosesi başlandıqdan sonra Cənub-Şərqi Asiyaya gələn hindli tacirlərin əsas axını Qucarat ticarət donanması hesabına formalaşmağa başladı. Qucaratlı hindli tacirlərin əksəriyyəti müsəlman idi ki, bu da tezliklə İslam dininin Malayya-İndoneziya ticarətində aparıcı qüvvəyə çevrilməsinə öz təsirini göstərdi.

Sahil knyazlıqlarının yerli hakimləri müsəlman tacirlərini öz ərazilərinə cəlb etmək üçün, onların dəstəyini almaq üçün, həmçinin induist və buddist dövlətlərlə münasibətdə öz müstəqilliklərini vurğulamaq üçün islam dinini qəbul edirdilər.

Malakka yarımadasında ən qədim müsəlman abidəsi 1347-ci ilə aid edilən Trenqanuda qəbirüstü daş hesab edilir (1, 56). Lakin Malakka sultanlığının yaranmasınadək İslam yarımadada dərin köklər ata bilmədi. Vaxtilə qüdrətli Şrivicaya dövlətinin bir əyaləti olmuş Malayya XIII əsrdə və XIV əsrin I yarısında iqtisadi yüksəliş dövrünü yaşayırdı (2, 69).

Buna baxmayaraq, Cənub-Şərqi Asiyanın strateji cəhətdən mühüm rayonunda yerləşən və Malakka boğazı boyunca gəmiçiliyə nəzarət edən Malayya knyazlıqları tam müstəqilliklərini uzun müddət saxlaya bilməzdilər. Bu

kiçik dövlət qurumlarının zəifliyi onların öz güclü qonşularından vassal aslılığına düşməsinə şərait yaradırdı.

XIV-XV əsrlərin qovşağında burada vəziyyət kəskin surətdə dəyişdi. Macapaxit dövlətindən (1253-1520) Malayyaya qaçan Yava şahzadəsi Parameşvara buranı müsəlmanların güclü hakimiyyətini yaratmaq üçün mübarizədə öz sosial-siyasi dayağına çevirdi. Macapaxit şahzadələrindən birinin əri olan Parameşvara 1400-cü ildə Malakkaya gəldi. "Beş ada" adlanan kiçik balıqçı kəndində məskunlaşdı. Kənd bundan sonra Malakka adlanmağa başladı. Sözün mənşəyi aydın deyil. Ərəb sözü olan malakat-yəni bazar sözündən götrülməsi ehtimal olunur (3, 42).

Parameşvara ticarəti inkişaf etdirmək məqsədi ilə Şimali Sumatrada yerləsən Pasey və Pidi knyazlıqları ilə sıx əlaqələr yaratdı. Bu knyazlıqlar müsəlman ticarət mərkəzləri idilər. Onların əhalisi hələ XIII əsrin sonu-XIV əsrin əvvəllərində İslamı qəbul etmişdi (3, 44). 1414-cü ildə Parameşvara Pasey sultanının qızı ilə evlənərək rəsmi surətdə islamı qəbul etdi və yaratdığı Malakka sultanlığına başçılıq etməyə başladı (4,156). Malakka hakiminin bu addımı Hindistandan və Şimali Sumatradan olan bir çox müsəlman taciri buraya yönəltdi. Beləliklə, yeni yaranmış sultanlıq Malakka yarımadası rayonunda müsəlman ticarət mərkəzlərindən birinə çevrilməyə başladı. Tezliklə İskəndər şah demək olar ki, bütün Malayyanı, həmçinin Sumatranın bir hissəsini, bir sıra yaxın adaları da ələ keçirdi.

Lakin İskəndər şah tezliklə tam qələbə əldə edə bilmədi. Yeni dinin Malakkada mökəmlənməsi xeyli vaxt apardı. Çünki Malayyanın induizmə əsaslanan ticarət-siyasi aristokratiyasının bir hissəsi o dövrdə hələ kifayət qədər güclü idi. XV əsrin I yarısı, demək olar ki, induistlər və müsəlmanlar arasında mübarizədə keçdi. Malakkanın aristokratiyasını təşkil edən Parameşvaranın qohumları və silahdaşları əvvəlki dinin saxlanılmasının tərəfdarı idilər. Hakimin müsəlman tacirlərdən ibarət olan yeni əhatəsi isə induist ənənələrinin tamamilə tərk edilməsi, Malakkanın müsəlman ölkələri ilə sıx ticarət əlaqələri olan tam müsəlman dövlətinə çevrilməsi tərəfdarı idilər.

1424-cü ildə İskəndər şahın ölümündən sonra hakimiyyətə gələn oğlu da müsəlman tacirlərini Sumatra limanlarından öz şəhərinə cəlb etmək üçün 1436-ci ildə atası kimi İslam dinini qəbul etdi və Məhəmməd şah adını aldı. Onun ölümündən sonra induistlərin qısa müddətli hakimiyyəti (1444-1445) dövrü olmuşdur.

1445-ci ildə çevriliş nəticəsində hakimiyyətə gələn Məhəmməd şahın oğlu racə Qasım sultan titulu və Müzəffər şah adını qəbul etdi. Bununla da, sultanlıqda İslam ənənələri tam qələbə çaldı. Hakimiyyətə islama əsaslanan yeni təbəqə gəldi. Müzəffər şahın dövründən dövlətin aktiv islamlaşması prosesi başladı (3, 45).

XV əsrin ortalarından başlayaraq islam Malakka sultanlığında əsaslı surətdə möhkəmlənə bildi. Bu proses uzunmüddətli oldu və XVII əsrin sonlarına qədər davam etdi. Məhz siyasi və sosial İslam İnstitutlarının köməyi ilə Ma-

lakka sultanlığı möhkəm mərkəzləşmiş dövlətə çevrildi. Cənub dənizlərində Yaxın Şərq və Çin ticarəti üzərində nəzarəti ələ keçirərək Qərbi İndoneziyada və Malaziyada aparıcı siyasi qüvvə oldu. Malakka boğazına girişdə əlverişli vəziyyəti, çevik ticarət-gömrük siyasəti, müsəlman, ilk növbədə hind və ərəb tacirlərinin dəstəyi yeni Malayya dövlətinin varlanmasına və böyüməsinə şərait yaradırdı.

XV əsrin II yarısında Malayya arxipelaqından Malakkaya dini bilgilər axtarışında daha tez-tez gəlməyə başladılar. Halbuki, XV əsrin ortalarınadək Malakka özü mürəkkəb dini məsələlərin həlli üçün Pasey knyazlığına müraciət edirdi. Bir sıra Yava mənbələrində göstərilir ki, adanın ən görkəmli müsəlman müqəddəsləri XV əsrin sonuncu rübündə Malakkada təhsil almışlar (5,107). Ümumiyyətlə, İslam dininin yayılması məsələsində Malakkanın ən böyük uğuru Yava əhalisinin İslamı qəbul etməsi idi. 1511-ildə portuqaliyalılar Malakkada yavalıların böyük yaşayış məskənlərini aşkar etmişdilər. Malakka ordusu demək olar ki, yavalılardan ibarət idi. Şərqi Yava və Malakka arasında ticarət yavalıların əlində idi. Yava tacirləri vasitəsilə də İslam tədricən Yava ərazisində yayılırdı. XV əsrin sonlarında İslam dini Bruneydə də yayıldı (4, 159).

XV əsr ərzində İslam dini Malayya mədəniyyəti sferasından induizm və buddizm qalıqlarını sıxışdırıb çıxardı. İlk dövrlərdə İslam əvvəllər induizm və buddizmdə olduğu kimi, Malakka cəmiyyətinin yalnız yuxarı təbəqəsinə daxil ola bildi. Hətta rəsmi olaraq İslam dininin qəbul edilməsinə baxmayaraq Malakka sultanları saray etiketində, mərasimlərdə, xüsusilə tacqoyma mərasimlərində, geyim və silahdaşımaya aid müxtəlif qaydalarda əvvəlki dövrün adətlərini qoruyub saxlamışdırlar.

Əhalinin əsas hissəsi isə əvvəlki kimi induist və buddist ənənələri ilə qarışmış animistik inanclara sadiq qalırdı. Məsələn, bəzi yerlərdə XVII əsrin əvvəllərinə qədər induist ilahəsinə insan qurban verilməsi mərasimi qorunub saxlanılmışdı. Bütün bunları nəzərə alaraq demək olar ki, geniş xalq kütlələri arasında İslam dini əsrlər ərzində yayıla bildi. İslamın çoxmillətli Malakkada digər dinlərə dözümlülüyünü də qeyd etmək lazımdır.

Eyni zamanda, Malayyaya İslam dini Qərbi Hindistandan gəldiyinə görə, hind islamı üçün xarakterik olan mistik elementlərin güclü təsirinə məruz qalmışdır. Malayyada İslam dininə həmçinin buddizm, qədim din – animizm və əcdadlar kultu da əhəmiyyətli təsir göstərmişdir. İslam Malayya cəmiyyətinə uyğunlaşır, öz qanunlarını bu cəmiyyətin adətlərinə və keçmişinə uyğun olaraq dəyişdirirdi. Malakkada İslamaqədərki toy adətləri, ölülərin yandırılması və s. qorunub saxlanılmışdır. Ümumiyyətlə, İslam hüququ Malayya cəmiyyətinə çox az təsir göstərmişdir.

İslam dininin qəbul edilməsi, öz növbəsində, burada hind yazısının ərəb, fars yazısı ilə əvəz olunmasına, hind- buddist mənşəli məbəd tikililərinin tənəzzülünə gətirib çıxardı (6, 435-436). İslam sayəsində Malayya ərəb-fars mədəniyyət inciləri ilə tanış olmaq imkanı əldə etdi. Müsəlman aləmi ilə

tanışlıq malayyalıların dünyagörüşünü genişləndirdi.

Malakka sultanlığı 1511-ci ildə portuqaliyalıların hücumu nəticəsində süqut etdi. Onlar sultanın ordusunu darmadağın etdilər, onun paytaxtını isə öz ticarət faktoriyalarına çevirdilər. Portuqal tacirləri burada XVII əsrin ortalarınadək ağalıq etdilər. Portuqaliyalıların soyğunçuluq siyasəti, onların yerli əhalinin adət və ənənlərinə etinasız münasibəti İslam dini ilə mübarizə aparmaları, İslam əvəzinə xristianlığı yaymaq cəhdləri işğalçılara qarşı çoxsaylı üsyanlara səbəb olurdu (7,15). Lakin mərkəzləşmiş dövlətin dağılması islam dövlətçiliyinin süqutuna gətirib çıxarmadı. Onun yerində bir neçə ölçüsünə görə kiçik sultanlıqlar yarandı ki, onların hər biri öz siyasətlərini yeridir, portuqaliyalıların sonra isə holland müstəmləkəçilərinin hücumlarına müqavimət göstərirdilər.

ƏDƏBİYYAT

1. Малайзия. Справочник. М.: Наука, 1987, 361с.
2. Берзин Э. О. Юго-Восточная Азия в XIII- XVI веках. М.: Наука, 1982, 332 с.
3. Тюрин В.А. История Малайзии. М.: Наука, 1980, 264 с.
4. Холл Д. Дж. Е. История Юго-Восточной Азии. М.: Иностранная лит., 1958, 598 с.
5. Винстедт Р.О. Путешествие через полмиллиона страниц. М.: Наука, 1966, 278 с.
6. Васильев Л.С. История Востока. В 2-х-т, Т. I, М.: Высшая школа , 2005, 512 с.
7. Латышева И.С. Малайзия. М.: Мысль, 1972, 136 с.

РАСПРОСТРАНЕНИЕ ИСЛАМА В МАЛАЙЕ. МАЛАККСКИЙ СУЛТАНАТ

К.М.СОФИЕВА

РЕЗЮМЕ

Статья посвящена распространению ислама среди народов Малаккского полуострова. Со стороны автора подчеркивается образование Малаккского султаната и окончательное утверждение здесь ислама. В статье также отмечается, что в течение веков ислам приспосабливался Малайскому обществу и видоизменял свои законы положения в соответствии с традициями и прошлым этого общества.

Ключевые слова: Юго-Восточная Азия, Малайя, Малаккский султанат, Искандер шах, ислам

THE SPREAD OF ISLAM IN MALAYA. MALACCA SULTANATE

K.M.SOFIYEVA

SUMMARY

The article is devoted to the spread of Islam among the peoples of the Malay Peninsula. The author emphasizes education of Malacca Sultanate and the final approval of Islam. The article also notes that over the centuries Islam has adjusted the Malay society and changed their laws and regulation in accordance with the traditions and the past of the society.

Key words: Southeast Asia, Malaya, Malacca Sultanate, Iskandar Shah, Islam